# Azərbaycan ilə Türkiyə arasında dini-mənəvi əlaqələrin inkişaf səviyyəsi məmnunluq doğurur

Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə olduğu kimi, dini-mənəvi əlaqələrin inkişaf səviyyəsi də razılıq doğurur. Bu fikir martın 1-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun ilə görüşündə səsləndirilib.

QMİ-nin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə bildirilib ki, bir millət, iki dövlət olan Türkiyə və Azərbaycan xalqlarının, dövlətlərinin birliyi, qardaşlığı sarsılmazdır və tarixin sınaqlarından keçib. Münasibətlərin təməlində duran dəyişməz dəyərlər var olduqca bu millətlərin qardaşlığı davam və inkişaf edəcək.



Azərbaycan və Türkiyə xalqlarının rifah və səadəti üçün dualar edən şeyxülislam A.Paşazadə beynəlxalq müstəvidə daim bir-birinə dəstək verən dövlətlərimizə sülh və tərəqqi arzu edib.

Qafqaz Müsəlmanları İdarəsi ilə Türkiyə Respublikasının Diyanət İşləri Başqanlığı arasında əlaqələrin olduqca dəyərli, əhəmiyyətli olduğunu vurğulayan QMİ sədri bu əməkdaşlığın bölgəmiz və ümumən, müsəlman birliyi müstəvisində ənənəvi dini-mənəvi dəyərlərimizin qorunması, inkişaf etdirilməsi üçün zəruri olduğuna diqqəti çəkib. O, səfirdən Diyanət İşləri başqanı doktor Məhməd Görməzə salamlarını və xeyir-dualarını yetirməyi xahiş edib.

Səfir İsmayıl Alper Coşqun Azərbaycan xalqının, Qafqazın tanınmış, mötəbər şəxsiyyəti kimi səciyyələndirdiyi şeyxülislam Allahşükür Paşazadə ilə görüşündən və söhbətlərindən məmnun olduğunu söyləyib. O, Azərbaycan və Türkiyə xalqları arasında tarixi dostluq, qardaşlıq, bütün sahələrdə səmərəli əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

***AZƏRTAC***